# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

428 Bakı şəhəri, 2 dekabr 2022-ci il

**"Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

"Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 555-VIQD nömrəli Qanununun tətbiqi və "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 avqust tarixli 1778 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2725; 2020, № 11, maddə 1408; 2022, № 4, maddə 380) ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın 4.6.4-cü yarımbəndində və 20.2-ci bəndinin birinci cümləsində "müvafiq tibb müəssisəsinin ölüm haqqında həkim və ya" sözləri "ölüm haqqında həkim konsiliumunun qərarının və ya həkim," sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

---

Xalq qəzeti .- 2022.- 4 dekabr.- S.7.